# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 182** **Bakı şəhəri, 24 iyun 2021-ci il**

**“Könüllü tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydaları”nın təsdiq edilməsi və “Tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 25 mart tarixli 49 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Könüllü tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** “Tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 25 mart tarixli 49 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 152; 2008, № 6, maddə 581; 2016, № 6, maddə 1220) ləğv edilsin.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**